"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".
Heydər Əliyev

Heydər Əliyev - xalq birliyi əbədidir!

AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır İctimai-siyasi qəzet | № 10-11 (1027) | 12 may 2018-ci il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

İlham Əliyev 9 May - Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib

İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə Bakıda təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

İkinci Dünya müharibəsində keçmiş SSRİ-nin qazandığı tarixi Qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 700 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 123 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

İkinci Dünya müharibəsinin veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdiyi qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 73 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.

Prezident, Ali Baş Komandan İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdi.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin qarşısından keçdi.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə günü münasibətilə onları təbrik etdilər.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə ümumrayon tədbiri keçirildi

Ölkəmizin və eləcə də dünyanın hər yerində olduğu kimi, Ağstafada da ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə ümumrayon tədbiri keçirildi. Azərbaycanın tarixinə şanlı səhifə kimi yazılan 10 may tarixi hamının qəlbində qürur hissi yaradır. Həmin gün Ağstafa rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların kollektivləri, rayonun ərazisində yerləşən N saylı hərbi hissələrin əsgər və zabitləri və eləcə də rayon ictimaiyyətininnümayəndələri Heydər Əliyev mərkəzinin önündə ulu öndərin abidəsi qarşısında keçirilən tədbirdə iştirak etdilər, ümummilli liderin abidəsi önünə əklillər qoydular, mərkəzin həyətindəki kitab və gənc rəssamların əl işlərindən ibarət sərgiyə tamaşa etdilər. Daha sonra isə Heydər Əliyev mərkəzinə ekskursiya olundu, ulu öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli filmə baxıldı.



Şəhər sakinləri ilə növbəti görüş

Ölkə rəhbərliyinin müvafiq tapşırığına uyğun olaraq respublikamızın hər yerində olduğu kimi, Ağstafada da vətəndaşların səyyar qəbulu və onlarla səyyar görüşlərin keçirilməsi davam etdirilir. Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev bu günlər şəhər sakinləri ilə növbəti görüş keçirmişdir. Görüşdə şəhərin dəmir yolu xətti ətrafında Qaçaq Kərəm kəndi ilə birləşən məhəllələrin ümumi vəziyyəti öyrənilmiş, yeni təmir olunmuş 11, 12 və 13 saylı kommunal yaşayış binalarına baxış keçirilmişdir. Görüşdə iştirak edən məhəllə sakinləri ilə səmimi söhbət aparılmış, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevinvətəndaşların sosial, məişət şəraitinin daha da yaxşılaşdırılması üçün göstərilən diqqət və qayğı onlara çatdırılmışdır.

Tədbirdə iştirak edən Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev məhəllə sakinləri ilə səmimi söhbət aparmış, onların problemləri ilə maraqlanmış, arzu və təkliflərini öyrənmişdir. İcra başçısı həmçinin ölkəmizdə aparılan sürətli sosial-iqtisadi inkişafdan, mövcud siyasi sabitlikdən, eləcə də dövlət başçısının tapşırıqlarına uyğun olaraq Ağstafada görülən geniş miqyaslı abadlıq quruculuq işlərindən danışmışdır. Görüşdə iştirak edən məhəllə sakinləri çıxış edərək onlara göstərilən diqqət və qayğıya görə cənab prezidentimiz İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirmiş, onu yenidən prezident seçilməsi münasibətilə təbrik etmişlər. Söhbət zamanı məhəllə sakinləri onları narahat edən problemləri icra başçısına bildirmişlər.

Rayon icra hakimiyyətinin başçısı M.Quliyev vətəndaşların irəli sürdükləri təkliflər, qaldırdıqları problemləri nəzərə almış, bu problemlərin həll edilməsi üçün müvafiq idarə, müəssisə rəhbərlərinə tapşırıqlar vermişdi.

Kolxəlfəli kəndində səyyar görüş

Rayon icra hakimiyyətinin başçısı ictimaiyyətlə növbəti səyyar görüşünü rayon mərkəzindən xeyli aralıda yerləşən Kolxəlfəli kəndində keçirdi. Kəndin mərkəzində keçirilən tədbirdə icra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyev çıxış edərək bildirdi ki, bu cür tədbirlər ölkə idman tədbirləri, beynəlxalq tədbirlər keçirilir.

M. Quliyev son illər Ağstafanın sosial-iqtisadi inkişafında baş verən müsbət dəyişikliklərdən ətraflı danışdı. O, qeyd etdi ki, həyata keçirilən bütün tədbirlərdə elini-obasını sevən hər bir ağstafalının əməyi vardır.

başçısı cənab İlham Əliyevin tapşırığına əsasən keçirilir. Belə görüşlərdə əsas məqsəd kənd ictimaiyyətini narahat edən problemləri aradan qaldırmaqdan ibarətdir. M. Quliyev ölkəmizdə aparılan sosila-iqtisadi inkişafdan, Azərbaycanın beynəlxalq arenadakı yüksək imicindən danışaraq bu gün Azərbaycan dünyanın ən sabit ölkələrindən biridir. Məhz bunun nəticəsidir ki, son illər Azərbaycanda ən böyük

Tədbirdə iştirak edən sakinlər onları narahat edən məsələlərə toxundular. Onlar öz müraciətlərində xüsusilə elektron ATS-in quraşdırılmasını, körpələr evi-uşaq baxçasının inşa olunmasını və kəndin müvafiq yerlərində yeni subartezian quyusunun qazılmasını xahiş etdilər. Vətəndaşların təklif və müraciətləri və həmin tədbirlərin aradan qaldırılması üçün müvafiq idarə, müəssisə rəhbərlərinə tapşırıqlar verildi.

Yaşayış binalarına və şəhər küçələrinə baxış keçirilidi

Rayonunun sosial-iqtisadi inkişafı (2014-2018-ci illər) Proqramına uyğun olaraq Ağstafa rayonunda çoxmənzilli yaşayış binalarının təmir-bərpası və mərkəzi küçələrin əsaslı yenidən qurulması işləri uğurla davam etdirilir. Rayon İcra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyev rayonun bir sıra məsul şəxsləri ilə birlikdə Ağstafa şəhərində növbəti təmir olunacaq çoxmənzilli yaşayış binalarına və rayonun mərkəzi küçələrinə baxış keçirdi. Binaların həyətində və küçələrdə sakinlərlə görüşdü, onları narahat edən digər məsələlərlə maraqlandı.

İcra başçısı sakinlərlə səmimi ünsiyyətdə onların nəzərlərinə çatdırdı ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqları və qarşıya qoyduğu vəzifələrin icrası nəticəsində son illərdə Ağstafa rayonunda genişmiqyaslı abadlıq-quruculuq işləri və həyata keçirilən irimiqyaslı sosial infrastruktur layihələrin icrası geniş vüsət almışdır. Həmçinin görülən işlər nəticəsində rayonun mərkəzi küçələri əsaslı yenidən qurulur, çoxmənzilli yaşayış binalarında təmir-bərpa işləri aparılır. İcra olunan bütün bu tədbirlər isə Ağstafanın çiçəklənməsi, firəvanlaşması və ağstafalıların daha rahat, qayğısız yaşamalarına hesablanmış addımlardır. Təbii ki, bu da dövlətimizin biz ağstafalılara göstərdiyi yüksək diqqət və qayğının bariz nümunəsidir.

Görüşdə iştirak edən sakinlər də öz növbəsində son illər dövlət səviyyəsində Ağstafada həyata keçirilən işlərdən razılıqlarını və minnətdarlıqlarını ifadə etdilər.

Bilik yarışı Heydər Əliyevin 95 illiyinə həsr olundu

Heydər Əliyev Mərkəzinin təşəbbüsü ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibəti ilə "İntellektual oyunlar" bilik yarışması keçirildi. Heydər Əliyev Mərkəzində keçirilən bilik yarışmasında Ağstafa şəhər 1, 2, 3 saylı və Ağstafa rayon Texniki - Hümanitar təmayüllü liseyin komandaları iştirak ediblər. Yarış iştirakçıları ilk öncə ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş kitab sərgisinə nəzər salıblar.

Tədbiri giriş sözü ilə Heydər Əliyev Mərkəzinin direktoru Ləman Cəlilova açaraq bildirib ki, "İntellektual oyunlar" bilik yarışmasının keçirilməsində məqsəd ulu öndər Heydər Əliyev irsinin öyrənilməsi və təbliği, milli-mənəvi dəyərlərimizin gələcək nəsillərə aşılamaqdan ibarətdir. Yarışın reqlamentinə uyğun olaraq I mərhələdə 4 komanda iştirak etdi. Bu mərhələdə 15 sualdan ibarət sual blankı səsləndirildi. Ağstafa şəhər 2 saylı tam orta məktəb və Ağstafa rayon Texniki -Hümanitar təmayüllü liseyin komandaları finala vəsiqə qazandılar. Finalda isə Ağstafa şəhər 2 saylı tam orta məktəbin komandası daha yüksək nəticəyə imza ataraq münsiflər tərəfindən qalib elan olundu. Qalib komanda müvafiq "Fəxri Fərman" və hədiyyələrlə təltif olundu.

Heydər Əliyev – 95

Hər il 10 may tarixində Azərbaycan xalqı ən görkəmli dövlət xadimlərindən biri, milli yaddaşımızda silinməz izlər buraxan, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin, Azərbaycan xalqının Ümummilli liderinin əziz xatirəsini hörmətlə yad edir. Ümummilli liderin 95-ci doğum gününün yad edilməsi, özündən sonra böyük mənəvi irs qoymuş bu dahi şəxsiyyətin fəaliyyətinə nəzər salmağa imkan verir.

Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Dahi şəxsiyyət, uzaqgörən siyasətçi

Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.

Azərbaycan xalqı 1993-cü ilin may-iyununda ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Heydər Əliyevin hakimiyyətə gətirilməsi ilə ayağa qalxdı, bu, əsl mənada, milli hərəkata çevrildi.Ulu öndərimiz Heydər Əliyevin dövlət quruculuğu sahəsində əldə etdiyi nailiyyətləri gözü götürməyən xarici düşmənlərin təhriki ilə hakimiyyət və mənəm-mənəmlik iddiasında olan bir qrup şəxslər 1994-cü ilin oktyabr və 1995-ci ilin mart ayında dövlət və hərbi çevrilişlərə cəhd edərək bir sıra görkəmli dövlət xadimlərinə qarşı terror aktları həyata keçirirdilər. Belə bir mürəkkəb dövrdə xalqı fəlakətlərə sürükləyən, gənc müstəqil Azərbaycan dövlətimizin yaşamasını təhlükə altında qoyan, dövlətçiliyimizə zərbə vuran, xalqın iradəsinə zidd mövqe tutan, onun taleyi ilə oynayan bir qurup hakimiyyət hərislərinə, cinayətkar ünsürlərə, xalq malına göz dikən, saysız-hesabsız qətillər törədən, yer üzünün əşrəfi hesab edilən, bəşəriyyətin ən ali varlığı olan insanların qanını axıdan cinayətkarlara layiqli cavab verilməli, onların məkrli, xislətli niyyətləri ifşa olunmalı və xalqın iradəsinə, qanuna zidd hərəkətlərinə görə həmin şəxslərin mütləq məsuliyyətə cəlb olunmaları və layiq olduqları cəzalara məhkum olunmaları təmin edilməli idi. Bu vəzifənin yerinə yetirilməsi dövlətin idarə etmə mexanizmində və insan hüquqlarının müdafiə olunmasında mühüm rol oynayan prokurorluq orqanlarının üzərinə düşürdü. Odur ki, baş vermiş bütün bu ağır cinayət hadisələrinin istintaqı məhz prokurorluğun peşəkar əməkdaşları tərəfindən aparılaraq həmin cinayətlərin üstü açılmış, cinayəti törədən şəxslər ifşa olunmuş və nəticədə cinayətə görə cəzanın labüdlüyü, ədalətlilik prinsipi, bərqarar olunaraq cinayətkarların layiqli cəza almaları təmin olunmuşdur. Eyni zamanda təşəkkül tapmaqda olan müstəqil Azərbaycan dövləti üçün təhlükə törədən cinayətkar ünsürlər zərərsizləşdirilmiş və ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti, dövlət idarəçiliyinin sirlərinə gözəl bələd olması, yürütdüyü siyasətdə xalqa arxalanması nəticəsində Azərbaycan xalqının rifahının yaxşılaşdırılması sahəsinədə ciddi nailiyyətlər əldə olunmuşdur.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Onun Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Daxili sabitliyin əldə edilməsi və qorunması istiqamətində yorulmadan çalışan Heydər Əliyev, 1993-95-ci illər ərzində daxili birliyi təmin edərək, ölkənin çiçəklənməsi prosesinin əsasını qoydu.

Çox çətin tarixi və geosiyasi təlatümlər dövründə Azərbaycanın enerji resurslarının dünya bazarına çıxarılmasını, və beləliklə də, gələcək nəsillər üçün təhlükəsiz neft siyasətinin aparılmasını təmin edən Heydər Əliyev, həm də çox istiqamətli tarazlaşdırılmış xarici siyasət konsepsiyasını formalaşdırdı. Heydər Əliyev qonşu ölkələr olan Rusiya və İranla mehriban qonşuluq münasibətlərini inkişaf etdirməklə yanaşı, Qərb ölkələri ilə də bütün sahələrdə münasibətlərin dərinləşdirilməsi istiqamətində fəal siyasət yürütmüşdü.

1995-ci ilin noyabrında referendum yolu ilə Azərbaycan Respublikasının ümumbəşəri demokratik dəyərləri özündə əks etdirən Konstitusiyasının və bir sıra digər qanunların qəbulu və əməli surətdə həyata keçirilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin rəhbərliyi altında milli maraqlara əsaslanan və siyasi perspektivləri nəzərə alan xarici siyasət kursu müəyyənləşmiş, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə qarşılıqlı münasibətlər qurulmuşdur. Onun uğurlu xarici siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edilərək beynəlxalq miqyasda nüfuzunun artmasına, islahatçı və təşəbbüskar dövlət olaraq tanınmasına xidmət göstərmişdir. Heydər Əliyevin beynəlxalq aləmdə atdığı qətiyyətli addımlar sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşmış, Azərbaycanın zorla cəlb olunduğu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişmiş, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır.

Xalqımızın ümummilli liderinin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir.

Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Heydər Əliyev fəaliyyətinin nəticəsidir.

Dövlət başçısı kimi Azərbaycan Prokurorluğuna münasibətini, inamını, etibarını 28 noyabr 1998-ci ildə Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak edən Heydər Əliyev belə ifadə etmişdir: «Azərbaycan Respublikasının Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram».

Əlbəttə belə münasibət, belə inam, belə etibar öz-özünə yaranmamış, bu münasibət, inam və etibar Azərbaycan Prokurorluğunun yarandığı ilk gündən daima dövlətə sadiqliyinin, qanunun aliliyini hər şeydən üstün tutmasının, insanların hüquqlarının qorunmasında heç bir güzəştə gedtmədən prinsipiallıq göstərilməsinin, mövqeyinin dəyişməz olmasının nəticəsidir.

Bu gün Azərbaycan Prokurorluğunun normal fəaliyyəti üçün müasir standartlar səviyyəsində normativ hüquqi baza, hər bir əməkdaşın məsuliyyət hissinin artırılması, qarşıda duran vəzifələrin yerinə yetirilməsi və çatışmamazlıqların dərhal aradan qaldırılmasını təmin edən nəzarət mexanizmi yaradılması Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanlarının cəmiyyətdəki roluna, funksiyalarına və fəaliyyətinə verdiyi yüksək qiymətin təzahürü olmaqla yanaşı, eyni zamanda prokurorluğun strukturunun daha da təkmilləşdirilməsinə yönəldilmiş mühüm addımdır.

Dövlətin mühüm dayaqlarından biri olan və ulu öndərimiz Heydər Əliyevin də «inandığı, güvəndiyi və arxalandığı» prokurorluq orqanı kimi biz cinayətkarlığa qarşı mübarizədə qəti və kəsərli olmaqla cinayətkarlığa qarşı dönmədən və əzmlə mübarizə aparacağıq ki, müstəqil respublikamızda dövlətçilik günü-gündən möhkəmləndirilsin, inkişaf etsin, azad respublikanın azad vətəndaşları və bizim ölkəmizdə yaşayan hər bir insan cinayətkarların qurbanına çevrilməsin, əgər belə hadisə baş verdikdə isə heç bir cinayətkar cəzasız qalmasın.

Emil Qurbanov,
Ağstafa rayon prokurorunun böyük köməkçisi II dərəcəli hüquqşünas

Ad günün mübarək

Ulu öndər Heydər Əliyevin ad günü münasibətilə

Tanrı bəxş eylədi Azərbaycana,
O bir mayak oldu bütün cahana
Dünya siyasəti dərs aldı ondan,
Heydər Əliyevin pür kamalından.

Müqəddəs varlıqdı o böyük dahi,
Nurdan xəlq eyləyib onu İlahi
Vətənə bağlıdı ürəyi, canı,
Qibləmiz, Kəbəmiz bilmişik onu.

O oldu xalqına hər zaman dayaq,
Sönməzbir günəşdi, yanan bir çıraq.
Hamı səcdə edir bu ada-sana,
Şan-şöhrət gətirdi Azərbaycana.

Göydən yerə enibbütün ulduzlar,
Görsün yer üzündə neçə ulduz var.
Ad günün mübarək, qəlblərdə yaşa,
Adın Vətənimlə çəkilir qoşa.

Qənirə Mehdixanlı,
Köçəsgər kəndi

Turnirə yekun vuruldu

Ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə rayonun idarə, müəssisə və təşkilatları arasında keçirilən mini futbol turnirinə yekun vuruldu. Şəhərin mərkəzi stadionunun yaxınlığındakı süni örtüklü futbol meydançasında keçirilən yarışın final mərhələsində Rayon polis şöbəsinin və Yanğından mühafizə xidməti idarəsinin komandaları arasında maraqlı görüş oldu. Yanğınsöndürənlər yarışda qalib gələrək turnirin ən yüksək pilləsinə sahib oldular. Yarışın bağlanış mərasimində Rayon icra hakimiyyətinin başçısı M. Quliyev iştirak etmiş və ölkəmizdə idmana, gənclərə göstərilən dövlət qayğısından danışaraq final yarışının qaliblərini təbrik etmişdir. Final iştirakçıları ilə bərabər yarışda üçüncü yeri tutmuş Rayon İdman və Gənclər İdrəsinin komandalarına kubok, medal və hədiyyələr təqdim olunmuşdur. Rayon icra hakimiyyətinin başçısı M.Quliyev sonda yarış qalibləri ilə xatirə şəkli çəkdirmişdir.

Qələbə-73

Müharibə veteranları ilə görüş

Ənənəyə uyğun olaraqhər il mayın 9-da alman faşizmi üzərində qələbənin ildönümü ikinci dünya müharibəsində iştirak etmiş bütün ölkələrdə unudulmaz tarixi gün kimi qeyd olunur. Bu qələbədə Azərbaycan xalqının da misilsiz xidməti, danılmaz rolu olduğu üçün bu tarixi gün ölkəmizdə də geniş qeyd olunur. Respublikamızın hər yerində olduğu kimi, rayonumuzda da Qələbə gününün sevinci aşkar hiss olunurdu. Sinəsi orden və medallarla dolu olan yaşlı insanlar mayın 9-da şəhərimizin küçələrinə çıxmış, böyük iftixar hissi ilə Qələbə bayramını qeyd etmişlər.

Qələbə bayramını bir yerdə qeyd etmək üçün son illərdə rayonumuzda gözəl bir ənənə yaranmışdır. Həmin gün müharibə veteranları və onların qələbə sevincinə şərik olanlar, veteranlardanbirinin evinə toplaşır, birlikdə şənlənir, ötən günləri xatırlayır və qələbə sevincini bölüşürlər. Rayon icra hakimiyyəti aparatının rəhbər işçiləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri də onların sevincinə qoşulur, qələbə əhval-ruhiyyələrini daha da canlandırırlar.

Alman faşizmi üzərindəqələbənin 73-cü ildönümünü qeyd etmək kimi şərəfli missiya bu il Ağstafa şəhərində yaşayan Əliyev Abdulla Kərəm oğluna qismət olmuşdu. Yaşı 93-ü haxlamış müharibə veteranı onun bayramını təbrik etməyə gələn rayon rəhbərlərini, ictimai təşkilatın nümayəndələrini, cəbhə yoldaşlarını qarşılamağa xüsusi hazırlıq görmüşdü. Bu məqsədlə təravətli yaz səhərində bağlı-bağatlı həyətindəaçıq havada gözəl bir süfrə də hazırlamışdı.

Müharibə veteranlarının qələbə sevincinə toplaşmışqanlı cəbhə şahidlərinin məclisinə Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, onun müavinləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri də təşrif buyurmuşdular. İcra başçısı M. Quliyev buraya toplaşmış müharibə veteranlarını şanlı qələbə bayramı münasibətilə ürəkdən təbrik edərək, respublikamızda müharibə veteranlarına göstərilən dövlət qayğısından söhbət açmışdır.O, qeyd etmişdir ki, müharibə veteranlarına, o məşəqqətli günlərin canlı şahidlərinə göstərilən misilsiz qayğı və diqqətin əsası ulu öndər tərəfindən qoyulmuşvə bu gün də sevimli prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün müharibə veteranlarımız hər cür dövlət qayğısı ilə əhatə olunmuş, onların həyat tərzinin, sosial məsələlərinin daha yaxşı həlli yolunda uğurlu tədbirlər həyata keçirilir. Sevindirici haldır ki, rayonumuzun müharibə veteranları, vətən müharibəsində həlak olanların ailə üzvləri də bu qayğıdan lazımınca bəhrələnirlər.

Qələbənin 73-cü ildönümü münasibətilə keçirilən görüşdə müharibə veteranları Babaxan İskəndərov, Əli Hüseynov, İbrahim Cəfərov, Kamil Məmmədov onlara göstərilən qayğı və diqqət üçün müstəqil dövlətimizə, onun ləyaqətli prezidenti cənab İlham Əliyevə, rayonumuzun icra başçısı Məhərrəm Quliyevə dərin minnətdarlıqlarını bildirmişlər.

Axırda müharibə veteranlarına qiymətli hədiyyələr verilmiş, bu qələbənin təmin olunmasında sağlamlıqlarını qurbanvermiş müharibə veteranlarına möhkəm cansağlığı, uzun ömür arzu edilmişdir.

Yurduma şöhrət gətirdi

Müdrik kamalıyla, dərin ağlıyla
Daş üstə gül-çiçək bitirdi Heydər,
Azadlıq bəxş etdi Azərbaycana,
Zülməti yurdundan itirdi Heydər.

Onun zəkasıyla tapdıq səadət,
Bir cənnətə döndü şəhər ilə kənd,
Tarix görməmişdir bir belə vüsət,
Xalqını murada yetirdi Heydər

Sülhün təməli var onun səsində,
Bir cahan yerləşir iradəsində,
Yaşarnəğməmizin tərənəsində,
Yurdunaşan-şöhrət gətirdi Heydər.

Binadan bir müdrik atadır bizə,
Şanlı səhifədir tariximizə,
Yaşamaqöyrədib həmişə bizə,
Başımızüstündə çətirdi Heydər.

Adil, onun adı ən gözəl addır,
Dostlara doğmadır, düşmənə yaddır,
Qəlblərdə misilsiz toydur, büsatdır,
Dilimdə ən gözəl sətirdi Heydər.

Adil Əmrah,
həkim

Heydər Əliyev və Azərbaycan Xalq Cümhuriyyəti

Azərbaycan xalqının ümummilli Lideri Heydər Əliyevin 95 illiyi və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi münasibəti ilə Heydər Əliyev Mərkəzinin böyük konfrans zalında geniş tədbir keçirildi. Rayon İcra hakimiyyəti və Ombudsmanın Gəncə regional mərkəzi tərəfindən keçirilən tədbiri giriş sözü ilə Rayon İcra hakimiyyəti başçısının müavini Lalə Eyyubova açaraq Şərqdə və müsəlman aləmində yaradılmış ilk parlamentli respublika kimi tarixə adını yazdırmış Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən danışdı. O, qeyd etdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı ilk dəfə ümummilli lideri Heydər Əliyev tərəfindən Naxçıvan MSSR-da qaldırılmışdır. Onun müstəsna xidmətləri nəticəsində müstəqilliyimizin itirilmə təhlükəsinin qarşısı alınmışdır. Azərbaycan xalqının təkidli tələbi ilə ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra ölkəmizdə vətəndaş müharibəsinin qarşısı alınmış, neft müqavilələri imzalanmış, ordu quruculuğunda xüsusi dönüş yaranmışdır.

Sonra Ombudsmanın Gəncə Regional mərkəzinin rəhbəri Səbuhi Abbasov genişməruzə ilə çıxış edərək ümummilli lider Heydər Əliyevin ölkəmizin inkişafında göstərdiyi misilsiz xidmətlərindən, müasir Azərbaycan tarixində insan hüquqları və demokratik islahatlar çərçivəsində həyata keçirilən işlərdən geniş danışmışdı.

Daha sonra Ağstafa rayon Təhsil şöbəsinin məsul işçisi Əli Əliyev, Ağstafa şəhər 3 saylı tam orta məktəbin direktoru Mübariz Tanırverdiyev, Heydər Əliyev Mərkəzinin direktoru Ləman Cəlilova, Ağstafa rayon Ağsaqqallar Şurasının sədri Firdovsi Heydərli də "Heydər Əliyev və Azərbaycan Xalq Cümhuriyyəti" mövzusunda geniş çıxışlar etdilər.

Keyfiyyət ili başa çatmaq üzrədir

Son bir neçə ildə rayonda ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, təhsilin inkişafına göstərilən qayğı diqqəti cəlb edən ən mühüm amillərdən biridir. Bu gün Ağstafa rayonunun ərazisində fəaliyyət göstərən 39 təhsil müəssisəsinin 32-si tam orta, 2-si ümumi orta, 3-ü ibtidai məktəb və 1-i texniki-humanitar təmayüllü məktəbdir. Bu təhsil müəssisələrində 1400-ə yaxın müəllim çalışır ki, onlar 12 minə yaxın gəncin təlim-tərbiyəsi ilə məşğul olur.

Ümumtəhsil məktəblərində son illər həyata keçirilən tədbirlər isə daha çox diqqəti cəlb edir. Bütün bunlar təlimin keyfiyyətinin daha da yaxşılaşdırılmasına öz təsirini göstərmiş və ötən illərdə bir çox uğurlu nəticələr əldə olunuşdur. Görülən işlər, qarşıda duran vəzifələr barədə oxuculara məlumat vermək üçün bu günlər Rayon Təhsil Şöbəsinin müdiri Kamran Abbasovla görüşüb söhbət etdik. K.Abbasov ona verilən sualları cavablandıraraq bildirdi:

- Mən bu gün tərəddüd etmədən deyə bilərəm ki, son 10 ildə Ağstafada ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, gənc nəslin təlim-tərbiyəsi işinin yaxşılaşdırılmasına göstərilən diqqət və qayğı əvvəlki illərdəkindən olduqca fərqlidir. Rayonumuzda təhsilə göstərilən qayğı həmişəki kimi ötən son illərdə də öz nəticəsini vermişdir. Orta məktəblərdə şagirdlərin bilik səviyyəsinin yüksəldilməsi, ali və orta ixtisas məktəblərinə qəbul olan gənclərin sayının artması əvvəlki illərdəkindən xeyli fərqli olmuşdur. Cari dərs ilini isə xüsusilə qeyd etmək olar. Belə ki, 2017-2018-ci dərs ilinin "Ümumitəhsildə keyfiyyət ili" elan edilməsi barədə təhsil nazirinin əmri ölkəmizin hər yerində olduğu kimi, Ağstafada da uğurla həyata keçirilir.

Rayonumuzda maarifləndirmə işləri çərçivəsində təhsil işlərinin sentyabr konfransının məruzəsi hazırlanarkən bu məsələyə xüsusi diqqət yetirilmiş, konfransın bölmə iclaslarında fənlər üzrə məktəb rəhbərlərinə Təhsil Nazirliyinin müvafiq əmri çərçivəsində nəzərdə tutulan tədbirlərin məqsəd və-mahiyyəti izah olunmuşdr. Bundan əlavə, təhsil şöbəsinin şura iclasında bu əmrin məzmunu bir daha məktəb rəhbərlərinin nəzərinə çatdırılmışdır.

Son illər məktəb şagirdlərinin təlim nailiyyətlərinə nəzarətin gücləndirilməsi sayəsində ümumtəhsil üzrə keyfiyyət göstəricilərində, xüsusilə də buraxılış imtahanları və ali məktəblərə qəbulun nəticələrində əvvəlki illərlə müqayisədə-nəzərəçarpacaq dərəcədə irəliləyişlər müşahidə olunmuşdur.

Fəaliyyətplanına əsasən tam orta məktəblərin məzunlarının son beş ildə ali məktəblərə qəbullarının nəticələri də araşdırılmış və bu sahə üzrə məktəblərin reytinqi müəyyən edilmişdir.Bütün bunlarla yanaşı qeyd etməliyəm ki, bəzi ümumtəhsil məktəblərində təhsilin keyfiyyətində mövcud olan gerilik bizi olduqca narahat etmiş, bununla əlaqədar mütəmadi olaraq müvafiq tədbirlər görmüşük. Qeyd etməliyəm ki, fəaliyyət planına uyğun olaraq son üç ildə şagirdlərin fənn olimpiadalarında iştirakı məsələsiaraşdırılmış və müəyyən edilmişdir ki, Ağstafa şəhər 3 saylı, Yenigün, Düzqışlaq, Kolxəlfəli, Eynallı, Köçvəlili, Köçəgər kənd 2 saylı orta məktəblərinin şagirdlərinin olimpiadalarda iştirakı zəif olmuşvə bu kimi məsələlər maarifyanı şurada geniş müzakirə edilmişdir.

Rayonda təhsil sistemində əldə olunan ən böyük nailiyyətlərin əsas səbəbi demək olar ki, bütün yaşayış məntəqələrində mövcud olan təhsil müəssisələrinin maddi-texniki bazalarının möhkəmləndirilməsidir. Təkcə son bir neçə ildə rayonda 7 yeni təhsil müəssisəsi inşa olunmuş, əksər məktəblərdə əsaslı təmir işləri aparılmışdır. Belə bir sevindirici fakt bu günlər rayonun sərhəd bölgəsində yerləşən Köhnə Qışlaq kəndində də mövcud olmuş və bu kənddə ən müasir tələblərə cavab verən yeni məktəb binası inşa edilmiş, ulu öndərHeydər Əliyevin 95 illik yubileyində məktəbin açılış mərasimi olmuşdur.

Mən böyük iftixar hissi ilə deyə bilərəm ki, həmin gün Köhnə Qışlaq kəndindəsözün əsl mənasında bayram idi. Bu münasibətlə məktəbin həyətində keçirilən tədbirdə Rayon icra hakimiyyətinin başçısı, hüquq-müafizə orqanlarının rəhbərləri, N saylı hərbi hissələrin komandirləri, kənd sakinləri, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər. Tədbiri giriş sözü ilə açan Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev bu münasibətlə bütün kənd sakinlərini təbrik etdi. O, qeyd etdi ki, bu gün cəbhə bölgəsində yaşayan əhalimizə Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin göstərdiyi qayğı hamını ürəkdən sevindirir.

Mən tədbirdə çıxış edərək rayonda təhsilin inkişaf etdirilməsinə göstərdiyi qayğıya görə cənab prezidentə, birinci vitse-prezident Mehriban xanım Əliyevaya bütün təhsil işçiləri adından öz dərin minnətdarlığımı bildirdim. Mənim çıxışımdan sonra kənd sakinləri, məktəbin müəllimləri belə bir ucqar kənddə gözəl , yaraşıqlı , hər cür şəraiti olan məktəbin inşa edilməsini müəllimlərə , kənd sakinlərinə göstərilən böyük diqqət və qayğı kimi qiymətləndirdilər.

Tədbirin sonunda məktəbin istifadəyə verilməsini bildirən rəmzi qırmızı lent kəsildi.

Bir neçə gündən sonra məktəblərimizdə cari dərs ili başa çatır. Mən əminəm ki, keyfiyyət ili olan 2017-2018-ci dərs ili bütün pedaqoji işçilərin yaddaşlarında qalan ən yaxşı illərdən biri olacaqdır. Fürsətdən istifadə edərək keyfiyyət ilinin yüksək səvviyyədə başa çatmasında böyük zəhməti olan bütün müəllimlərimizə Rayon təhsil şöbəsinin rəhbəri kimi dərin minnətdarlığımı bildirir, onlara gənc nəslin təlim-tərbiyəsi işində daha böyük uğurlar arzulayıram.

Müsahibəni apardı:
İbrahim Əliyev

Veteranın döyüş xatirələri maraqla dinlənildi

Ağstafa şəhər 2 saylı tam orta məktəbin müəllim və şagirdləri 9 may Qələbə gününü təntənəli şəkildə qeyd etdilər. Qələbə gününə həsr olunmuş tədbir ilk öncə məktəbin iclas zalında başladı. Yığıncağa toplaşanlar qarşısında çıxış edən məktəbin direktoru Vəfa Tağıyeva Böyük Vətən müharibəsində sovet ordusu sıralarında şərəflə xidmət edən, vətənin müdafiəsində qəhrəmancasına döyüşən Azərbaycan əsgərlərinin keçdiyi şərəfli yoldanətraflı danışdı. O, qeyd etdi ki, müharibə illərində ölkəmizin hər yerində olduğu kimi, rayonumuzdan da yüzlərlə igid oğullar vətən uğrunda döyüşmüş, onların əməyi yüksək qiymətləndirilmişdir. Bu gün onlar bizim sıralarımızda az da olsalar öz şərəfli həyat yollarını davam etdirir və biz onları yad etməyi özümüzə borc bilirik.

Tədbirdə Rayon Təhsil Şöbəsinin müdiri Kamran Abbasov iştirak etmiş, müharibənin ağrılı-acılı günlərindən ətraflı danışmış, onların heç vaxt unudulmayacağını qeyd etmişdir.

Məktəbin şagirdləri 9 May Qələbə günü ərəfəsində bir sıra başqa tədbirlər də keçirmiş, müharibə veteranlarını yad etmişlər. 9 may ərəfəsində şagirdlər Eynallı kəndində olmuş, kənd sakini Böyük Vətən müharibəsinin iştirakçısı İbrahim Cəfərovun görüşünə getmiş, onun bayramını təbrik etmiş, veteranın böyük xatirələrini maraqla dinləmişlər.

Məktəbin 8-ci sinfinin rəhbəri Nərgiz Musayeva, şagirdlər Nərgiz Tağıyeva, Kərim Orucov, Rauf Quliyev,Lamiyə Orucova, Şökət Aslanova, Fidan Cəfərova, Məmməd Əliquliyev və digər şagirdlər söylədikləri şeirlərlə Böyük Vətən müharibəsi iştirakçısını sevindirmiş, İbrahim babanın könlünü xoş etmişlər.

Heç kim unudulmur

Bu gün də onu tanıyanlar yad edirlər

Sovet ordusunun alman faşizmi üzərində qələbəsindən düz 73 il vaxt keçir. Bu rəqəm tarix üçün uzun müddət olmasa da insan ömrü ilə müqayisədə heç də az vaxt deyil. Bir əsrə yaxındır ki, sovetlər birliyinə daxil olan ölkələr may ayının 9-nu böyük qələbə günü kimi qeyd edir, həmin illər xatırlanır, vətən uğrunda qəhrəmancasına döyüşənlər, bu yolda canlarını qurban verənlər yad edilirlər. Bu ənənə ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da davam etdirilir. Çünki Böyük Vətən müharibəsində qəhrəmancasına döyüşən oğullar hər yerdə olduğu kimi, rayonumuzda da az olmam]ışdır. Belə igid oğullardan biri də Əhəd Tapdıq oğlu Bayramov olmuşdur.

Əhəd Bayramov 1921-ci ildə rayonumuzun Qarahəsənli kəndində anadan olmuş, orada böyüyüb boyabaşa çatmışdır. Müharibə başlayanda onun 21 yaşı təzəcə tamam olmuşdu. Vətənin müdafiəsi üçün ilk dəfə müharibəyə təntənəli surətdə yola salınan igid oğullardan biri də Əhəd Bayramov olmuşdur. O, 1941-ci ildə müharibənin qızğın dövründə qaynar nöqtələrdən birinə göndərilmiş, minlərlə Azərbaycan oğulları kimi Əhəd Bayramov da qəhrəmancasına döyüşmüşdür. 1945-ci ilə kimi sovet ordusu sıralarında xidmət göstərən gənc eloğlumuz heç nədən qorxmadan, heç nədən çəkinmədən vətənini müdafiə etmiş və düz Berlinə kimi şanlı döyüş yolu keçmişdir.

Hamı kimi Əhəd də müharibədən sonra doğma vətəninə, doğulduğu Qarahəsənli kəndinə qayıdıb ailə həyatı qurmuşdur. Lakin ölkədə olan vəziyyətlə əlaqədar gənc hərbçi yenidən ordu sıralarına göndərilmiş və 1947-ci ilə kimi sovet ordusu sıralarında xidmətini davam etdirmişdir. Ölkədə tam sabitlik yaranandan sonra Əhəd Bayramov yenidən ordu sıralarından tərxis olunmuş, doğma kəndinə qayıtmış, təsərrüfat fəaliyyətinə başlamışdır. O, ömrünün son illərinə kimi kənddə təsərrüfatda çalışmış, əvvəlcə adi fəhlə kimi, sonra isə təsərrüfat briqadiri kimi əmək yolu keçmişdir.

Əhəd Bayramov istər ordu sıralarında olanda və istərsə də təsərrüfatda çalışanda həmişə əməyi yüksək qiymətləndirilmişdir. Hərbi xidmətdə olarkən ona Qırmızı ulduz, Almaniya üzərində qələbə, Böyük Vətən müharibəsi ordenləri verilmişdir. Müharibə başa çatdıqdan sonra Əhəd Bayramov yenə də diqqət mərkəzində olmuş və 1974-cü ildəona Şərəf nişanı ordeni verilmişdir.

Əhəd Bayramovu çoxları kimi mən də tanıyırdım. O dövrdə Qazax və Ağstafa rayonları bir olarkən Qazax rayon Partiya Komitəsində işləyirdim. Həmin dövrlərdə tez-tez təsərrüfatlarda olur, əmək adamları ilə görüşür, onlarla söhbətlər aparırdım. Bax, elə o vaxt mən qabaqcıl briqadir kimi Əhəd Bayramovla da görüşmüş, onun əmək fəaliyyəti ilə maraqlanmışdım. Çox zəhmətkeş, təmkinli bir insan idi. O, dəfələrlə rayon sovetinin deputatı seçilmişdir. Uzun illər Əhəd Bayramovun şəkli Qazax rayon Partiya Komitəsinin binası qarşısındakı şərəf lövhəsində olmuş və bu lövhənin qarşısından keçənlərin diqqətini cəlb etmişdir.

Əhəd Bayramov qabaqcıl əmək adamı, tanınmış müharibə veteranı olduğu kimi, həm də gözəl ailə başçısı idi. 6 oğul və 1 qız atasıkimi tanınan bu qabaqcıl əmək adamının kənddə böyük nüfuzu var idi. Onun böyük oğlu Fəxrəddin Bayramov uzun müddət Ağstafada pasport masa rəisi işləmişdir. Atası kimi ictimaiyyət arasında Fəxrəddin müəllimin də böyük nüfuzu vardır. Bu gün təqaüddə olmasına baxmayaraq, hamı Fəxrəddin müəllimlə böyük ehtiramla görüşür.

Əhəd Bayramovun digər oğulları, Mikayıl, İsmədddin, İsmayıl, Rafiq və bu gün Ağstafa subartezian quyuları idarəsində işləyən və böyük hörmət sahibi olan Rəfayıl Bayramov da, qızı Yeganə də atalarının yolunu uğurla davam etdirirlər.

Əhəd Bayramov 2001-ci ildə dünyasını dəyişmişdir. Onun ölümündən xeyli vaxt keçməsinə baxmayaraq, 9 May qələbə günü hamı kimi o da yad olunur, yaxın qohumları, nəvələri onun qəbrini ziyarət edirlər. Və belə bir əziz gündə hamı böyük fəxarət hissi keçirərək dünyasını dəyişən Böyük Vətən müharibəsi iştirakçılarının hamısına rəhmət diləyir və deyirlər:

- Heç kim unudulmur, heç nə yaddan çıxmır.

İbrahim Əliyev

Hamının sevimlisi

Bir neçə gündür ki, rayonun bütün idarə, müəssisə və təşkilatlarında, təhsil, səhiyyə, mədəniyyət müəssisələrində ulu öndər Heydər Əliyevin 95 illiyinə həsr olunan yığıncaqlar keçirilir. Belə bir mərasim may ayının 4-də rayonun statistika idarəsində təşkil olunmuş, dahi rəhbərin həyat və fəaliyyətindən geniş söhbət açılmışdır. İdarənin rəisi Kənan İbrahimov yığıncaq iştirakçıları qarşısında çıxış edərək ulu öndərin həyat və yaradıcılığından danışmış, onun Qazax və Ağstafa rayonları ilə bağlı xatirələrindən söhbət açmışdır. K. İbrahimov qeyd etdi ki,Heydər Əliyevin qəlbi həmişə ağstafalılarla bir olmuş və o, işlədiyi dövrdə bir neçə dəfə qərb bölgəsinəsəfər etmiş, əmək adamları, partiya, müharibə veteranları ilə görüşlər keçirmişdir.

Heydər Əliyev qərb bölgəsinə səfər edərkən bu regionun sosial-iqtisadi inkişafı ilə dərindən maraqlanmış, Qazax və Ağstafanın çiçəklənməsi üçün dəfələrlə sərəncamlar vermişdir. Ağstafalılar həmişə olduğu kimi, bu gün də ulu öndərin onlara göstərdiyi diqqət və qayğını xatırlayır və dahi rəhbərin əziz xatirəsini qəlblərində yaşadırlar.

Yığıncaqda "Ağstafa" qəzetinin baş redaktoru İbrahim Əliyev iştiak etmiş, Heydər Əliyevin həyat və fəaliyyətindəngeniş söhbət açmış, onun dünyanın hər yerində böyük nüfuza malik olması barədə konkrekt faktlara əsaslanan xatirələrini danışmışdır.

Yığıncaq iştirakçıları qeyd etmişlər ki,ulu öndər Heydər Əliyev nə qədər ki, Azərbaycan xalqı, Azərbaycan dövləti var, o, heç vaxt unudulmayacaqdır.

Böyük-Kəsik kəndinə təbii qaz verildi

Möhtərəm prezidentimiz cənab İhlam Əliyevin tapşırığına əsasən Ağstafanın da sosial-iqtisadi inkişafının təmin edilməsi, vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması üçün olduqca böyük tədbirlər həyata keçirilmişdir. Bu gün Ağstafanın bütün yaşayış məntəqələrinin qazlaşdırılması bunun bariz nümunəsidir. Bu günlər Ağstafanın ən axırıncı yaşayış məntəqəsinə-Böyük-Kəsik kəndinə təbii qaz verilir. Bu, əslində kənd əhalisi üçün böyük bayramdır. Mən bu bayram münasibətilə bütünBöyük-Kəsik əhalisini ürəkdən təbrik edirəm.

Tədbirdə Şəmkir Regional Qaz İstismar İdarəsinin rəisi Osman Behbudov çıxış edərəkilk öncə bütün kənd ictimaiyyətini təbrik etdi və qeyd etdi ki, 340 abonenti olan Böyük-Kəsik kəndinin qazlaşdırılması üçün bir pilləli sistem əsasında ümumi uzunluğu 6338 metr müxtəlif diamterli polietilen, ümumi uzunluğu 20463 metr müxtəlif diametrli metal borularla daşıycı, paylayıcı və məhəllədaxili qaz xətləri çəkilmiş, mənzillərə sayğac və fərdi tənzimləyicilər quraşdırılmışdır. O. Behbudov təbii qazdan istifadə edəcək bütün vətəndaşlara çatdırdı ki, gələcəkdə təbii qazdan istifadə edərkən diqqətli olsunlar, təhlükəli vəziyyətin yaranmaması üçün bütün tədbirləri görsünlər.

Mərasimdə iştirak edən Böyük-Kəsik kənd sakinləri Aydın Qurbanov, Süleyman Nağıyev, ağbirçək ana Xavər İsmayılova çıxış edərək onlara göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər.

Tədbirin sonunda kəndə təbii qazın verilməsini ifadə edən rəmzi məşəl alovlandırıldı.

Ölkə başçısı, möhtərəm prezidentimiz cənab İlham Əliyevin vətəndaşların sosial-iqtisadi həyat şəraitlərinin yaxşılaşdırılması üçün verdiyi tapşırığa uyğun olaraqrayonumuzda aparılan məqsədyönlü işlər uğurla davam etdirilir. Normal həyat şəraitinin yaxşılaşdırılması üçün yaşayış məntəqələrinin qazlaşdırılması belə tədbirlərin ən vaciblərindən biridir. Böyük inamla demək olar ki, son illər rayonda bu istiqamətdə xeyli iş görülmüş, əksər yaşayış məntəqələrinə təbii qaz verilmişdir.

Bu günlər ağstafalılar belə xoşməramlı tədbirlərdən birinin də şahidi oldular. Xeyli vaxt idi ki, Böyük-Kəsik yaşayış məntəqəsinə təbii qazınverilməsi üçün gərgin iş aparılırdı. Nəhayət, bu günlər Qaz İstismarı İdarəsi işçilərinin apradıqları iş yekunlaşmış və bu münasibətlə kənddə böyük tədbir keçirilmişdir.

Tədbiri giriş sözü ilə Rayon icra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyev açmışdır. O, son illlər respublikamızda aparılan böyük quruculuq işlərindən danışaraq qeyd etdi ki, bu gün vətəndaşların həyat şəraitlərinin daha da yaxşılaşdlrılması üçün böyük işlər aparılır. Məhz bunun nəticəsidir ki, Azərbaycan bu gün dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilmişdir. Bütün bunlar nəzərə alınaraq respublikamızda ən böyük tədbirlərin keçirilməsinə meydan verilmiş, dünyanın bir çox ölkələrinin vətəndaşları həmintədbirdə iştirak etmək üçün Azərbaycana üz tutmuşlar.

Fabrikdə işlər uğurla davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı nəzticəsində gündən-günə sürətləinkişaf edən rayonumuzun iqtisadi həyatında da böyük dəyşikliklər yaranmışdır. Bu gün böyük inam hissi ilə demək olar ki, Ağstafa rayonu həm kənd təsərrüfatı, həm də sənaye rayonu kimi tanınır. Çox qısa bir müddətdə inşası başa çatdırılan "Azərxalça" ASC-nəməxsus Ağstafa toxuculuq fabrikinin qısa müddətdə inşa edilməsi buna parlaq misaldır. Artıq bir neçə aydır ki, gənc toxucular fabrikdə toxuculuğun sirlərini öyrənir və həm də xalça toxuyurlar.

Rayon icrahakimiyyətinin başçısı Məhərrəm Quliyev bu günlər rayonun bir qrup məsul işçiləri ilə birlikdə xalça toxuculuq müəssisəsində olmuş, müəssisənin fəaliyyəti ilə yaxından maraqlanmışdır. M. Quliyev gənc toxucuların iş şəraiti ilə daha yaxından tanış olduqdan sonra burada yüksək səviyyədə istehsal olunan "Qarabağ", "Gəncə" və "Qazax" növlərindən olan xalçalara baxmışdır. Fabrikdə Rayon icra hakimiyyətinin başçısına məlumat verilmişdir ki, xalçaların toxunmasında tamamilə təbii resurslardan olunur ki, bu da burada hazırlanan məhsulların daha dəyərli olmasına səbəb olur. Bütün bunlar onu göstərir ki, fabrikin məhsulları təkcə daxili deyil, həm də xarici bazarlara çıxarılmasına zəmin yaradır.

Hazırda xalça fabrikində Bakı şəhərindən cəlb edilmiş peşəkar xalça mütəxəssislərinin nəzarəti və tədrisi ilə yerli toxucu qadınlar bu sahədə daha zəngin təcrübəyə yiyələnirlər. Fabrikdə işləyən qadınların daha rahat və səmərəli fəaliyyət göstərmələri üçün də hər cür şərait yaradılmışdır.

Halal zəhmət öz bəhrəsini verir

Uzun illərdir ki, Ağstafanın iqtisadiyyatında maldarlıq mühüm yer tutur. Bu sahənin inkişaf etdirilməsinə həmişə diqqət və qayğı göstərilmişdir. Ötən illərdə olduğu kimi, cari ilin arxada qalan aylarında da bu məsələ diqqət mərkəzində olmuş, maldarlıqla məşğul olan əmək adamlarına yerli hakimiyyət orqanı tərəfindən lazımi qayğı göstərilmişdir.

Rayon statistika idarəsinə verilən məlumat onu göstərir ki, maldarlıq işçiləri əvvəlki illərdə olduğu kimi, cari ilin dörd ayında da öz ənənələrinə sadiq qalmış, maldarlığın inkişaf etdirilməsi üçün lazım olan bütün tədbirləri görmüşlər.

Bizə daxil olan məlumatları təhlil edərkən belə bir nəticəyə gəlmək olur ki, keçən ilin müvafiq dövrü iləmüqayisədə maldarlıqda bütün göstəricilər müsbətdir. Əgər 2017-ci ilin bu dövründə rayonda26377 baş iribuynuzlu malqara var idisə, cari ilin həmin dövründə rayonda 26452 baş qaramal qeydə alınmışdır.

Həmin dövrlə müqayisədə rayon üzrə inək və camışların baş sayı 39 baş, qoyun və keçilərin sayı 57 baş artmışdır ki, bu da həmin sahədə çalışanların gərgin əməyinin bəhrəsi kimi qiymətləndirilir.

Maldarlıq məhsulları istehsalı sahəsində əldə edilən nəticələr də sevindiricidir. Rayon üzrə 2017-ci ildə 1017 ton ətistehsal olunmuşdursa, 2018-ci ilin müvafiq dövründə həmin göstəricidən 8 ton çox ət istehsal olunmuşdur.

Süd istehsalı sahəsindəki göstəricilər də pis deyildir. Keçən illə müqayisədə cari ilin müvafiq dövründə rayon üzrə 23 ton çox süd istehsal olunmuşdur. Yumurta istehsalı da qənaətbəxşdir. Bu sahədə keçən illə müqayisədə 245 ədəd çox yumurta istehsal olunmuşdur. Bir sözlə, ötən dövrün göstəriciləri onu deməyə əsas verir ki, maldarlıq sahəsində çalışanlar onlara göstərilən diqqət və qayğıdan ruhlanır və söz yox ki, bu estafeti ilin sonunadək müvəffəqiyyətlə davam etdirəcəklər.

Kənan İbrahimov,
Rayon statistika idarəsinin rəisi

Silsilə tədbirlər keçirilir

Bu il Azərbaycan Xalq Cumuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Ölkəmizüçünəlamətdar olan bu hadisənin dövlət səviyyəsində qeyd edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Xalq Cumhuriyyətinin 100 illik yubileyi haqqında müvafiq sərəncam imzalamışdır. Həmin sərəncama əsasən respublika Nazirlər Kabinetində müvafiq tədbirlər planı hazırlanmış və onun həyata keçirilməsi üçün əlaqədar təşkilatlara xüsusi tapşırıqlar verilmişdir.

Həmintədbirlər planında nəzərdə tutulanlardan əlavə əlamətdar tarixi hadisə ilə əlaqədr ölkəmizdə və eləcə də xaricdə silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Ölkə başçısının sərəncamına uyğun olaraq Rayon icra hakimiyyətində də müvafiq tədbirlər hazırlanmış və həmin tədbirlərin həyata keçirilməsi başlanılmışdır.

Bu il aprel ayının 28,29-da Ağstafa şəhər 3 saylı tam orta məktəbinin idman zalında keçirilən sərbəst güləş yarışı cumhuriyyətin 100 illiyinə həsr olunmuşdur.

14 kq çəki dərəcəsində keçirilən yarışda Ağstafa idmançıları ilə yanaşı,Tovuz və Qazax rayonlarının 100-dən çox yeniyetmə pəhləvanı öz qüvvəsini sınamış və qalib olmaq üçün gərgin mübarizə aparmışlar.

Olduqca maraqlı və gərgin idman mübarizəsi şəraitində keçən bu yarışda Ağstafa idmançıları daha fəal iştirak etmiş müxtəlif çəkilərdə mübarizə aparan idmançıların əldə etdikləri yüksək nailiyyətə görə Ağstafa idmançıları 1-ci yerə çıxmışlar. Yarışda Tovuz pəhləvanları da fəal işitrak etmiş və onlar 2-ci yerə çıxmış, Qazax rayonunun güləş komandaları 3-cü yerlə kifayətlənmişlər. Yarış başa çatdıqdan sonra qaliblərə müvafiq diplom və hədiyyələr verilmişdir.

Hörmətli oxucular!

Rayonumuzun yeganə mətbu orqanı olan

"AĞSTAFA"

qəzetinə 2018-ci ilin ikinci yarım ili üçün abunə yazılışı davam edir. Qəzetə rayon mətbuat yayımında və redaksiyanın özündə abunə yazıla bilərsiniz. Qəzetin yarım illik abunə qiyməti 10 manatdır.

Redaksiyanın Kapital bankın Ağstafa filiallındakı hesab nömrəsi AZ04AİİB33080019445200229152, VÖEN nömrəsi isə 3600081691-dir.

Qəzetimizə abunə yazılanlara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

Regional Mərkəzin Maarifləndirmə tədbiri

Fövqəladə Hallar Nazirliyinin Gəncə Regional Mərkəzin əməkdaşları may ayının 4-də S. Şükürova adına 3 nömrəli tam orta məktəbdə "Fövqəladə hallarla bağlı davranış qaydaları" mövzusunda maarifləndirmə tədbiri keçirmişlər.

Tədbirdə Ağstafa rayon Dövlət Yanğından Mühafizə Hissəsinin və Gəncə Regional Dövlət Yanğın Nəzarəti İdarəsinin əməkdaşları da iştirak etmişlər.

Toplantının keçirilməsində əsas məqsəd məktəbin kollektivinə müxtəlif xarakterli təbii və texnogen mənşəli fövqəladə halların yaranma səbəbləri, onlardan qorunma üsulları haqqında biliklərin aşılanması olmuşdur.

Tədbirdə dəm qazı, yanğınlar, zəlzələ, "112" qaynar telefon xətti, odsöndürən balonlardan istifadə qaydaları haqqında geniş məlumat verilmiş, mövzulara aid slaydlar, videoçarxlar nümayiş olunmuşdur.

Yığıncaqda iştirak edən məktəbin müəllimləri çıxış edərək belə bir tədbirin məktəbdə keçirilməsini məqsədəuyğun hesab etdiklərinə görə mərkəzin əməkdaşlarına və rəhbərliyinə dərin minnətdarlıqlarını bildirmişlər.

Tədbirin sonunda təbliğat materialları məktəb rəhbərliyinə təqdim edilmiş, suallar cavablandırılmışdır.

MEŞƏLƏRİ YANĞINDAN QORUYUN!

Bioloji cəhətdən öz inkişafında bir-birinə qarşılıqlı təsir göstərən torpağın, suyun, ağac, kol, ot bitkilərinin, heyvanat aləminin, mikroorqanizmlərin vəhdəti hesab edilən meşə sahələri Azərbaycanın ən qiymətli milli təbii sərvəti hesab olunur. Torpaqlarımızın üst münbit qatının yuyulub getməsinin qarşısının alınmasında, sel daşqınlarının minimuma endirilməsində, tarlaların küləkdən və quraqlıqdan qorunmasında meşələrin müstəsna əhəmiyyəti vardır.

Meşələrdən bəhrələnməklə, onun nemətlərindən istifadə etməklə yanaşı, təbiətin bu füsunkar nemətini qorumaq, onu gələcək nəsillərə ərməğan etmək hər bir vətəndaşın borcudur. Meşələrin məhv olmasının əsas səbəblərindən biri onun yanğınlara məruz qalmasıdır. Meşələrimizin yanğın təhlükəsizliyini təmin etmək üçün bir sıra zəruri tədbirlərin həyata keçirilməsi vacibdir.

Meşələrin yanğın təhlükəsizliyi daim diqqət mərkəzində olmalıdır:

Birinci növbədə qeyd edilməlidir ki, Azərbaycan Respublikası meşələrində yanğın təhlükəsizliyinin təşkil olunmasında məsuliyyət Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin, onun yerlərdəki strukturlarının üzərinə düşür. Meşələrdə yanğın təhlükəsizliyinə cavabdeh olan şəxslər, o cümlədən meşə mühafizə mühəndisləri meşələrin yanğın təhlükəsizliyi qaydalarını bilməklə meşə sahələrində və zolaqlarında yanğına qarşı ciddi rejim təyin etməli və bu rejimə ciddi riayət olunmasını daim nəzarətdə saxlamalıdırlar. Meşə təsərrüfatında yanğın təhlükəsizliyinə məsul olan şəxslər yanğın təhlükəsizliyi qaydalarına riayət olunmasına nəzarət etmək məqsədi ilə meşə sahələrinə və zolaqlarına vaxtaşırı baxış keçirməli, yanğın baş verən zaman yanğınsöndürmə xidmətinin hadisə yerinə çağırılması üçün tədbirlər görməli, yanğının söndürülməsi üçün mövcud vəsaitləri təşkil etməlidirlər.

Meşə yanğınlarına səbəb nədir?

Meşə yanğınlarından bəhs edərkən xüsusilə vurğulanmalıdır ki, bu sahədə baş verən 10 yanğından 9-u odla ehtiyatsız davranmadan və ya meşədə iş və istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozması səbəbindən baş verir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, isinmək, xörək bişirmək üçün qalanmış tonqallar və meşəni tərk edərkən bu tonqalların tam söndürülmədən nəzarətsiz qoyulması meşə yanğınlarına səbəb olur. Söndürülməmiş kibritin, siqaret kötüyünün meşəyə atılması, maşınların mühərrikindən çıxan qığılcımlar da yanğın törədir.

Meşə yanğınlarının qarşısını almaq üçün nə etməli?

Meşədə yanğınlara yol verilməməsi üçün yanğın təhlükəsizliyi istiqamətində bir sıra qaydalara əməl olunması zəruridir. Meşələrə sürtkü yağı, benzin, ağ neft, dizel yanacağı və digər yanar mayelərə bulaşmış əski və digər materialları atmaq olmaz. Meşələrdə avtomobil, traktor və digər daxiliyanma mühərrikli aqreqatların yanacaqla doldurulması, eləcə də onların yaxınlığında siqaret çəkilməsi, tonqal yandırılması yanğın təhlükəli olduğundan yolverilməzdir. Meşələrdə yanacaq və sürtkü yağlarının açıq şəkildə saxlanılması da yanğın təhlükəlidir. Yanğın təhlükəsindən uzaq olmaq üçün meşədə emal edilmiş hazır meşə materialları açıq sahədə müəyyən olunmuş qaydada yığılıb saxlanılmalıdır. Turist istirahət zonaları, gənclər və uşaq təşkilatları tərəfindən dövlət meşə fondu torpağında keçirilən kütləvi tədbirlər zamanı tonqallar yalnız Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin icazəsi ilə bu təşkilatın ayırdığı xüsusi yerlərdə qalana bilər. Tullantıların yandırılması da bütün hallarda həmin təşkilatla razılaşdırılmalıdır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, meşədə yanğınların baş verməsinə şərait yaradan əsas səbəblərdən biri tonqallardır. Tonqal yandırılarkən bütün təhlükəsizlik qaydalarına əməl etmək vacibdir. Tonqal heç bir halda ağacın altında (xüsusən də budaqları aşağı sallanan ağacların altında) yandırılmamalıdır. Quru ağac kötükləri və quru ot olan ərazidə də od qalamaq olmaz. Tonqal qalamaq üçün əvvəlcədən yer hazırlamaq və yaxud da köhnə, qalanmış tonqalın yerindən istifadə etmək lazımdır. Tonqal qalamaq üçün ilk növbədə ağaclardan xeyli aralıda yer hazırlamaq məqsədəmüvafiqdir. Həmin ərazi otlardan təmizlənməli, tonqal üçün çala qazılmalıdır. Tonqal heç zaman nəzarətsiz qalmamalıdır. Ehtiyatda olan yanacaq məhlulu tonqaldan 3-5 metr aralıda saxlanmalıdır. Əgər ehtiyac yoxdursa, çox hündür ocaq qalamaq lazım deyil. Diqqət yetirilməlidir ki, tonqaldan kənara az qığılcım düşsün. Xüsusən də küləkli havada bu, çox təhlükəlidir. Tonqalı yandırarkən küləyin gücünə və istiqamətinə uyğun tonqal yandırmaq lazımdır. Çünki kənara sıçrayan qığılcımlar otun və yarpaqların alışmasına səbəb ola bilər.

Meşədə yanğın baş verərsə...

Meşə yanğınları ilə əlaqədar əhali bilməlidir ki, insanlar üçün meşə yanğınının təhlükəsi nəinki alovun birbaşa təsirindən, eyni zamanda atmosferdəki güclü oksigen çatışmazlığından, dəm qazının və digər qatışıqların artmasından yaranan zəhərlənmələrdən ibarətdir. Bunları nəzərə alaraq meşə yanğınları zamanı birinci növbədə insanlar və kənd təsərrüfatı heyvanları təhlükəli zonadan çıxarılmalı, yanğın yerinə giriş məhdudlaşdırılmalı, yanğının söndürülməsində təhlükəsizlik təmin edilməlidir. Yanğın ərazisində işləyənlər xüsusi geyimlər, tüstü əleyhinə maskalar və əleyhqazlardan istifadə etməlidirlər. Yanğın ərazisindən keçmə zərurəti yarandıqda tənəffüs yollarının zədələnməməsi üçün nəfəsi tutmaq lazımdır.

Gəncə Regional Dövlət Yanğın Nəzarəti İdarəsi

Etibarsız sayılır

Eynallı kənd sakini Quliyev Qulu Bəhrəm oğlunun adına olan 1104 nömrəli Texniki pasport və 159 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Vurğun qəsəbə sakini Abbasov Faiq Yolçu oğlunun adına verilmiş 502013018498-10301 reyestr nömrəli, 2615000778 qeydiyyat nömrəli reyestrdən çıxarış və Texniki pasport itdiyi üçün etibarsız sayılır.

* * *

Aşağı Kəsəmən kənd sakini mərhum Hüseynova Cəvahir İmran qızının adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-980 nömrəli Dövlət Akt itdiyi üçün etibarsız sayılır.

* * *

Aşağı Kəsəmən kənd sakini Şükürov Ayvazalı Zabit oğlunun adına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair JN-458 nömrəli Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Aşağı Kəsəmən kənd sakini Hüseynov Cavanşir Əhəd oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-981 nömrəli Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Kolayır kənd sakini Yolçuyeva Qumru Oruc qızının adına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair JN-0048 nömrəli (kod 50204028) Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Ağstafa şəhərində yerlşən "Qafqaz" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus hüquqi sənədlər itdiyi üçün etibarsız sayılır.

* * *

Həsənsu kənd sakini Əliyev Cəfər Həsən oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-91 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Qıraq Kəsəmən kənd sakini, mərhum Məmmədova Sələmə Mehdi qzının adına olan 161 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR:

İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
"Ağstafa" qəzetinin jurnalist kollektivi

Şəadətnamə № 308

Redaksiya heyəti

L.Eyyubova, L.İsayeva, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.

Ünvan:
Ağstafa şəhəri,
Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000